HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 dekabr 2016-cı il
№024 (38)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## GÜRCÜSTAN TÜRKİYƏ İLƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK NİYYƏTİNDƏDİR



Dekabrın 20-də Gürcüstanın baş naziri Georgi Kvirikaşvili türkiyəli həmkarı Binəli Yıldırımla keçirdiyi birgə mətbuat konfransında Gürcüstan üçün Türkiyə ilə strateji xarakter daşıyan qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinin mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, həmçinin Gürcüstanın NATO-ya üzvlüyə cəhd etməsi məsələlərində Türkiyə hökumətinin dəstəyini yüksək qiymətləndirdiklərini bildirib.

Kvirikaşvilinin sözlərinə görə, gürcü tərəfi siyasət, ticarət, nəqliyyat, energetika və mədəniyyət sahələrində qarşılıqlı münasibətlərin dərinləşdirilməsində maraqlıdır, lakin bunun üçün regionda sülhün möhkəmləndirilməsi gərəkdir.

O, deyib: “Düşünürük ki, bizim regionda sülhün və sabitliyin möhkəmləndirilməsi üçün mövcud münaqişələrin beynəlxalq hüququn prinsiplərinə uyğun və dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət əsasında sülh yolu ilə tənzimlənməsi lazımdır”.

Bundan başqa, Gürcüstan hökumətinin başçısı Tbilisinin Türkiyədə baş verən terror aktlarını, Rusiya səfirinin öldürülməsini qəti şəkildə qınadığını bəyan edib. Kvirikaşvili vurğulayıb: “Biz terror aktları nəticəsində həlak olanların və zərər görmüşlərin ailələrinə, əlbəttə ki, Türkiyə hökumətinə başsağlığı veririk”.

## İSTANBULDA “AVRASİYA” TUNELİNİN AÇILIŞI OLDU

Dekabrın 20-də İstanbulda “Avrasiya” tunelinin açılışı olub. Açılış mərasimində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, baş nazir Binəli Yıldırım, digər rəsmi şəxslər, habelə dövlət, hökumət başçıları, nazirlər və səfirlər səviyyəsində çoxsaylı əcnəbi qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən Türkiyə prezidenti “Avrasiya” tunelinin İstanbulun Avropa və Asiya hissələrini birləşdirdiyini vurğulayıb. Prezident deyib: “Avtomobil tunelinin təməli İstanbulun Asiya hissəsində qoyulub, onu şəhərin Avropa hissəsində açırıq. Bu tunelin açılışı mühüm hadisədir”.

Onun sözlərinə görə, ilin sonunadək tuneldə gediş haqqı 15 türk lirəsi təşkil edəcək. Avrasiya avtomobil tuneli İstanbulun Qazlıçeşmə və Qoztəpə rayonları arasındakı gediş müddətini 90 dəqiqədən 15 dəqiqəyədək azaltmağa imkan verəcək.



Layihə sualtı yol vasitəsi ilə İstanbulun Avropa və Asiya hissələrini birləşdirməyi nəzərdə tutur. Bu, dənizin dibi ilə bu cür dərinlikdə salınmış ilk tuneldir. Tunelin tikintisi üzrə işlər Bosforun altında 106 metr dərinlikdə həyata keçirilib. Tunelin uzunluğu 14,6 kilometr təşkil edir. Bunun da 3,4 kilometri sırf dənizin altından keçir. Layihənin ümumi dəyəri 1,25 milyard dollar qiymətləndirilir.

2 2016-CI İLDƏN YADDA QALAN BİR NEÇƏ EPİZOD

“UĞUR” UCALIĞI 3

4 SURİYA PROBLEMİ VƏ MOSKVA-ANKARA-TEHRAN YAXINLAŞMASI

MUASİR DÖVRDƏ HƏLƏ DƏ İRQÇİLİYİN VAR OLMASI... 5

6 HƏMYERLİMİZ SAİT RÜSTƏMİN ANKARADA HEYKƏL SƏRGİSİ AÇILIB

GÜRCÜ YAZIÇISI QRİQOL ROBAKİDZE VƏ ONUN ÜÇÜNCÜ SAHİLİ... 7

## PARLAMENT SƏDRİ KONSTİTUSİYA DÜZƏLİŞLƏRİNİN QƏBULU ZAMANI KONSENSUSUN VACİB OLMASINDAN BƏHS EDİB



Gürcüstan parlamentinin və Konstitusiya komissiyasının sədri İrakli Kobaxidze konstitusiya dəyişiklikləri zamanı konsensusa əsaslanmağın lazım olduğunu bildirib.

Kobaxidzenin sözlərinə görə, Konstitusiyanın formalaşdırılması üçün bu aylarda həyata keçiriləcək elə proses gərəkdir ki, son redaksiya cəmiyyətin bütün nümayəndələri üçün qəbul edilən olsun.

İrakli Kobaxidze hazırkı mərhələdə prezident administrasiyasının Konstitusiya komissiyasının işinə qoşulmamasına bir daha təəssüfləndiyini və bu qərara yenidən baxılacağına ümid etdiyini bildirib.

“Bədnam bir mövzu var ki, Konstitusiyaya ediləcək dəyişikliklər mənfi qarşılanacaq. Ümumiyyətlə, Konstitusiya dəyişiklikləri cəmiyyətdə mənfi qarşılanır, bu ənənəni dəyişmək və prosesi düzgün məcraya yönəltmək üçün bu istiqamətdə işləmək vacibdir. Bununla belə, Konstitusiyaya elə əsaslı prinsiplər daxil etmək lazımdır ki, zamanın sınağından keçə bilsin və ölkənin uzunmüddətli demokratik inkişafını təmin etsin” – Kobaxidze deyib.

## VİKTOR DOLİDZE: «NATO-YA VƏ Aİ-YƏ ÜZVLÜK HÖKUMƏTİMİZİN ƏSAS VƏ SON MƏQSƏDİDİR



NATO-ya və Aİ-yə üzvlük bizim hökumətimizin əsas və qəti məqsədidir. Bunu dekabrın 26-da parlamentin bir neçə komitəsinin birləşmiş iclasında Gürcüstanın Avropaya və Avroatlantik strukturlara inteqrasiya məsələləri üzrə Dövlət naziri Viktor Dolidze söyləyib.

“NATO-ya və Aİ-yə üzvlük Gürcüstanın xarici siyasətinin və təhlükəsizlik siyasətinin, habelə bizim hökumətimizin əsas və son məqsədidir. Sadəcə olaraq, biz indi proseslər içərisindəyik. Aİ ilə biz siyasi assosiasiya və iqtisadi inteqrasiya prosesindəyik, NATO-ya münasibətdə alyansla yaxınlaşmaq üçün, xüsusilə bizim qarşılıqlı şəkildə bir yerdə olmamızı artırmaq və bizim müdafiə qabiliyyətimizi yüksəltmək nöqteyi-nəzərindən böyük addımlar atılır. Bunun aydın təsdiqi NATO-nun son iki sammitində qəbul etdiyi qərarlardır. Bu proses ciddi addımlar və düzgün planlaşma tələb edir” – Dolidze vurğulayıb.

## KOBAXİDZE: GÜRCÜSTAN HƏLƏ İKİPALATALI PARLAMENT SİSTEMİNƏ HAZIR DEYİL

Hazırkı mərhələdə Gürcüstan ikipalatalı parlament sisteminin yaradılmasına hazır deyil. Bu fikri Gürcüstan parlamentinin sədri, Dövlət Konstitusiya komissiyasının rəhbəri İrakli Kobaxidze səsləndirib.

Parlament sədri Gürcüstan Konstitusiyasına görə, ikipalatalı parlamentin yaradılmasının ölkənin ərazi bütövlüyünün bərpa olunması məsələsi ilə bağlı olması şəraitinə diqqət çəkib.

“Gürcüstanda ikipalatalı parlamentin işə salınması birbaşa yurisdiksiyanın bərpası məsələsi ilə bağlıdır. Bundan çıxış edərək, bu məsələlərlə bağlı müzakirələr aparılmalıdır, lakin düşünürəm ki, indiki mərhələdə Gürcüstan ikipalatalı parlament sistemi yaratmaq üçün hazır deyil. Amma biz bunu Konstitusiya komissiyası formatında müzakirə edirik və son qərar orada qəbul olunacaq” – Kobaxidze bildirib.



## 2016-CI İLDƏN YADDA QALAN BİR NEÇƏ EPİZOD

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Elə nədən başlayıb, nədən qurtaracağımı düşünürdüm ki, qafamda şimşək kimi bir fikir parladı. Niyə yazımın əvvəlini qışın bu soyuğu ilə, qışın soyuğunun gətirdiyi fəsadlarla başlamayım kimi bir qərara gəldim. Hə, bunun nə danı, nə daldası var, bu il ötən illərlə müqayisədə qış sərt gəlib. İşə bax ki, Saxaraya belə qar yağıb. Atalarımız o dağa qar yağdı, bu dağa qar yağdı, sənə xəbər olmadımı? – deyirdilər. Qışdı gəlib, qış göydə qışlayası deyil ki? Şaxtalar, soyuqlar bir yana, bircə bu qrip zəhrimar olmasaydı. Xalq arasında qrip olduğunu, bu xəstəliyə yoluxduğunu anlatmaq üçün adamlar “andırdan dəyib”, “gəzənlərdən dəyib” kimi deyimlərdən də istifadə edirlər. Bu qrip deyilən elə zəhrimardır ki, hərə bir resept təklif edir, hərə bir məsləhət verir. Biri deyir zəhrimarın dərmanı mürəbbəli çaydır. Biri deyir zoğal mürəbbəsi yaxşıdır, biri deyir moruq. Biri bal ud deyir, biri də nə bilim nə. Dərman reklamları da ki, efirdən gözümüzü döyənək edir, qulağımızı dəng. Sən deyilənlərin hamısına əməl edirsən, nə olsun? Bu mərdüməzar aralanmır ki, aralanmır. Həmin asqırıq, həmin öskürək, daha selini-suyunu da demirəm. Səni yerdən-yerə vurduqdan sonra, bir də baxırsan ki, şələ-şüləsini də yığıb, əkilib getdi.**

Bu qışın ikinci bir ziyankarlığı da var. Yayda ay öldüm, ay itdim, ay yandım deyib haray-həşir saldığımız müftə istini indi bir ətək pul verib almalı oluruq. Kimi odun pulu dərdi çəkir, kimi qaz pulu. Hara gedirsən hamı bundan danışır. Bu arada elektrik enerjisinin, qazın qiymətlərinin qalxacağı barədə gedən söz-söhbətlərə də aydınlıq gəldi. Dövlət qiymətləri tənzimləmə qurumu belə bir şeyin olmayacağını bəyan etməklə, vətəndaşları rahatlatdı. Amma, bu rəsmi idarə nə qədər bizi rahatlatsa da, qiymət artımının hələ də gündəmdən düşməməsi adamın ürəyinə şübhə toxumu səpir və beynində bir sual dolandırır – ey dili-qafil, birdən başımızın altına yastıq qoyarlar? İndi havalar nə qədər çox şaxtalı da keçsə, bunu ürəyinizə dərdmi edəcəksiniz? Yaman günün ömrü az olar deməyiblərmi? Qorqud ata demirdimi ki, lopa-lopa qarlar yağa, yaza qalmaz. Bir də baxacayıq ki, yaz günəşi üzümüzə-gözümüzə sığal çəkib, hər yanı qızdırıb.

Deyirəm bu məqamdan yazımın yönünü dəyişim, nə deyirsiniz? Axı, biz 2016-cı təqvim ilini başa vurmaq üzrəyik, yeni 2017-ci ilə başlamaq ərəfəsindəyik. 2016-cı ildə nələr elədik, hansı arzularımız, problemlərimiz gerçəkləşdi, nələri etməli idik, edə bilmədik və ya hansı istəklərimiz suya düşdü? Bu sualları istənilən qədər uzatmaq da olardı, amma, məncə, elə bunlarla da kifayətlənmək olar.

Əvvəl-əvvəl ordan başlayım ki, bu il ölkəmizin siyasi həyatında önəmli bir hadisə – parlament seçkiləri baş tutdu. Bəzi məqamları kənara qoysaq, ölkəmizdə xalqın əksər təbəqələrinin iştirakı ilə keçirilən bu seçkilər göstərdi ki, xalq öz taleyinə biganə deyil, yaşadığı ölkənin gələcəyi onun üçün əsasdır. Seçkini başa vurub, yenicə Allah sənə şükür, demək istəyirdik ki, milli valyutamız dəyərini itirməyə başladı və pulumuzun bu cür qan itirməsi vətəndaşlarımızın həyatında öz sözünü deməyə başladı. Artıq yeni ildən müxtəlif məhsulların qiymətinin qalxacağı elan olunsa da, işbazlar daha da varlanmaq, bəlkə də özlərini sığorta etmək üçün qiymətləri bəri başdan, yəni 2016-cı ilin sonlarından qaldırmağa başladılar. Və işsizliyin hələ də ölkənin əsas problemlərindən biri olduğunu nəzərə aldıqda əhalinin aztəminatlı təbəqələrinin hansı məşəqqətlər çəkdiyini söyləmək üçün Amerika kəşf etməyə ehtiyac belə yoxdur. Sizi qane edib, etməyəcəyindən əmin olmasam da, bu məsələni də bir tərəfə qoymaq istəyirəm. Və sizi yormayacaq qədər qısa şəkildə 2016-cı ildə dünyada baş vermiş bir-iki olay barədə danışmaq marağımı gizlədə bilmirəm.

Bizdəki seçkilərdən təxminən bir ay sonra okeanın o tayında da seçkilər keçirildi və ABŞ əhalisi mühafizəkar meylli, Ağ evin daxili və xarici siyasət kursuna nəzərəçarpacaq korrektələr edəcəyi ilə hamını ümidləndirən milyarder Donald Trampı ölkənin yeni – 45-ci prezidenti seçdi. Rəsmi şəkildə vəzifəsinin icrasına başlamamış Tramp dünya gündəmini silkələyən bəyanatları və təyinatları ilə dünyada yeni bir eranın müjdəçisi kimi görünməyə başladı. Trampın prezident seçkilərindəki qələbəsini artıq dünyada liberal dəyərlərin dəbdən düşməsi kimi də dəyərləndirmək olar, mühafizəkar kəsmin qələbəsi də saymaq mümkündür.

Qardaş Türkiyədə gedən siyasi proseslər də uzun müddətdir ki, qəzetlərin manşetindən düşmür. 15 iyul olayları və türk xalqının hərbi qüvvələrə sızmış gülənçiləri dayandırması dünya və türk tarixinin unudulmaz qəhrəmanlıq səhifələrindən biridir. Türkiyənin dünyanın geosiyasi düzənində söz sahibinə çevrilməsini istəməyən güclərin körüklədiyi bu hadisələrin ardınca yaşanan terror aktları və son olaraq rus səfirinə qarşı sui-qəsdin təşkili Türkiyənin çıxarlarına qarşı yönəlsə də, sonunda türkün dostunun kim, düşmənin kim olmasına da aydınlıq gətirdi.

Və sonda dünya solçularından biri olan Fidel Kastronun ölümü ilə bağlı onu demək istəyirəm ki, bəzi qəzetçilər onun ölümü ilə XXI əsrin rəsmən bitdiyini söyləyirlər. Bununla yəqin ki, həmin qəzetçilər sosialist ideyasının sonuncu mogikanının, sonuncu dayaqlarından birinin yıxıldığını bəlirtmək istəmişlər. Nə isə, işləri avand olsun.

**De, 2017-ci ildə sağ-salamat görüşmək ümidilə salamat qalın. Qripdən qorunmaq üçün əllərinizi te-tez yumağı unutmayın!**

## AZƏRBAYCANIN GÜRCÜSTANDA YENİ SƏFİRİ TƏYİN EDİLİB

Prezident İlham Əliyev Dursun Ayvaz oğlu Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.

Bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.

Sərəncamda qeyd edilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Dursun Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

Xatırladaq ki, D. A. Həsənov indiyədək ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi ilə Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin müavini vəzifəsində çalışırdı.

## BAKI-TBİLİSİ-QARS LAYİHƏSİNİN İSTİSMARA VERİLƏCƏYİ TARİX BƏLLİ OLDU




Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi 2017-ci ilin birinci rübündə istismara veriləcək.

Bunu Türkiyənin baş naziri Binəli Yıldırım gürcüstanlı həmkarı Georgi Kvirikaşvili ilə görüşü zamanı bildirib.

Onun sözlərinə görə, layihə tamamlanmaq üzrədir.

Öz növbəsində G. Kvirikaşvili qeyd edib ki, Bakı-Tbilisi-Qars layihəsi Türkiyə, Gürcüstan və Azərbaycan arasında mövcud olan əməkdaşlığın vacib elementidir.

## MOSKVA GÜRCÜSTANLA VİZA REJİMİNİ LƏĞV ETMƏYƏ HAZIRLAŞIR

Rusiya prezidenti Vladimir Putin keçirdiyi mətbuat konfransında Gürcüstan vətəndaşları üçün Rusiya ilə vizasız rejimə qayıtmağın mükünlüyünü vurğulayıb. Rusiya dövlət başçısının sözlərinə görə, bunun üçün kifayət qədər əsaslar var.

Rusiya prezidenti deyib: “Mən Gürcüstan vətəndaşları üçün Rusiya ilə vizasız rejimə qayıtmağı istisna etmirəm, mənə belə gəlir ki, bunun üçün bütün əsaslar var, xüsusən də, biz Gürcüstanda ayrı-ayrı hakim strukturlar tərəfindən verilən müəyyən işarələri görürük”.

## İQTİSADİ İNKİŞAFI DƏSTƏKLƏMƏK MƏQSƏDİLƏ ABŞ GÜRCÜSTANA MALİYYƏ YARDIMI EDƏCƏK

ABŞ Gürcüstana 22,5 milyon dollar həcmində qrant ayıracaq. Tbilisidə Gürcüstanın maliyyə naziri Dmitri Kumsişvili və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) direktoru Duqlas Bol müvafiq razılaşma imzalayıblar.

Razılaşma əvvəllər Tbilisi və Vaşinqton arasında bağlanmış müqavilədə dəyişikliklər edilməsini nəzərdə tutur. 22,5 milyon dollarlıq məbləğ ABŞ-ın əvvəllər Gürcüstana ayırdığı qranta əlavə olunacaq.

Əldə olunmuş razılaşma Gürcüstan üçün prioritet istiqamətləri əhatə edir.

Gürcüstan və USAİD arasında qrant razılaşması 2015-ci ilin dekabrında imzalanıb. Bu razılaşma çərçivəsində ilkin mərhələdə Gürcüstana təxminən 19,1 milyon dollar ayırılacaq. Gürcüstan maliyyə nazirliyinin məlumatına görə, layihələrin gerçəkləşdirilməsi 2016-2020-ci illərdə həyata keçiriləcək.

## GÜRCÜSTANIN RUSİYA İLƏ ƏLAQƏ FORMATI BƏLLİ OLUR

Gürcüstan XİN-nin başçısı Mixail Canelidze Moskva ilə konstruktiv və praqmatik dialoqun davam etdiriləcəyini bəyan edib.

İki ölkə arasında münasibətlərin normallaşması perspektivləri haqqında danışarkən, o, qeyd edib ki, Gürcüstan baş nazirinin RF ilə əlaqələr üzrə nümayəndəsi Zurab Abaşidze və RF XİN-nin müavini Qriqori Karasinin görüşləri müntəzəm olaraq davam etdiriləcək.

Canelidze bu formatda əlaqələrin artıq ticarət, iqtisadi, mədəni, humanitar münasibətlərdə müəyyən nəticələrə çatmağa imkan verdiyini düşünür.

Xatırladaq ki, Gürcüstanın yeni hökuməti Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasını xarici siyasətin əsas prioritetlərindən biri adlandırır.

## GÜRCÜSTANDA ORTA ÖMÜR UZUNLUĞU 72 İLDİR

Gürcüstanda orta ömür uzunluğu 72 il təşkil edir. Bu barədə jurnalistlərə Demoqrafik Dirçəliş Fondunun sədri Tamara Çiburdanidze məlumat verib.

Onun sözlərinə görə, bu, yaxşı göstəricidir və səhiyyə sahəsində müsbət islahatların aparıldığını sübut edir.

Bununla belə, ümumi göstəricilərə görə, bütövlükdə Gürcüstanda, o cümlədən də Tbilisidə doğum halları azalıb. Hal-hazırda Gürcüstanda 3 700 000 nəfər yaşayır.

Demoqrafik Fondun məlumatlarına görə, iki ildən sonra Gürcüstanda on min yeni pensiyaçı da olacaq. “Bu onunla bağlıdır ki, yaxın bir neçə il ərzində 60-cı illərdə doğulanlar pensiya yaşına daxil olacaqlar” – Çiburdanidze deyib.



Gürcüstanın bütün regionları üzrə 2016-cı ilə dair məlumatları Demoqrafik Fond 2017-ci ilin yanvarın sonlarında, bütövlükdə 2016-cı ilə dair məlumatları isə mart ayında elan edəcək.

Çiburdanidze 2015-ci ilin birinci yarım ilinin doğum göstəriciləri ilə 2016-cı ilin analoji dövrünün doğum göstəricilərinin təxminən eyni olduğunu vurğulayıb.

# YETİŞMİŞ BİR OVUC İNSAN

**Kainatı yoxdan var edən uca Allah, yaratdığı məxluqlar arasında insana ayrı bir dəyər vermişdir. Bu səbəblə də insan, yaradılmışlar arasında "Əşrəful-məxluqat", yəni yaradılmışların ən şərəflisi olaraq bilinir. Uca Allah, yaratdığı məxluqların ən şərəflisi olan insanı özünə həmsöhbət etmişdir. Qurani Kərimin bir çox ayəsi "Ey insanlar!" deyə başlamaqdadır. İnsana dəyər verən uca Allah, bu dünyada hər şeyi onun üçün yaratdığı kimi, o biri dünyada da ona cənnəti hazırlamışdır. Qurani Kərimdə də cənnətə gedən yolun dünyadan keçdiyini söyləmişdir. Uca Allah, dünyada necə yaşayacağını və cənnəti necə qazanacağını da insanın özünə öyrətmiş və bunun üçün kitablar və peyğəmbərlər göndərmişdir. Göndərdiyi peyğəmbərlərin sonuncusu həzrət Məhəmməd Mustafa (s.ə.s), son kitab da Qurani Kərimdir.**



Uca Allahın göndərdiyi son kitab olan Qurani Kərim, Həzrət Məhəmməd Mustafanı (s.ə.s) insanlara ən gözəl nümunə, yəni Üsveyi həsənə olaraq təqdim etməkdədir. Bəli, O, (s.ə.s) uca Allahın insanlar içindən seçib, yenə insanlara göndərdiyi ən gözəl nümunədir.

Həzrət Məhəmməd Mustafa (s.ə.s) insani dəyərlərin itdiyi bir zamanda, cahiliyyə cəmiyyətinə peyğəmbər olaraq göndərildi. Qısa zaman ərzində bu cəmiyyəti dəyişdirdi və onları ən üstün səviyyəyə çıxardı. Bunu necə etdi? Necə bacardı? Hz. Peyğəmbər, hər şeydən əvvəl insana dəyər verdi. Bütün işi insan yetişdirmək və onu kamil hala gətirmək oldu. Çünki uca Allah insana dəyər vermiş, ona xitab etmiş, onu cənnətə dəvət etmişdi. Peyğəmbərimiz də uca Allahın dəyər verdiyi insana dəyər verərək, onu yetişdirərək işə başladı. Qarşı tərəfə bir sevgi ilə bağlandı və bunun qarşılığında da həmin dərəcədə sevgi gördü.

Mükəmməl bir cəmiyyəti meydana gətirmək üçün təhsil böyük əhəmiyyət daşıyır. Təhsil kimi əhəmiyyətli bir işə Peyğəmbərimiz də "əsri səadət" dövründə çox əhəmiyyət vermişdir. Hər səhabəyə ayrı-ayrı səy sərf edən Əfəndimiz, hər kəsi bir mövzuda nümunə alınacaq hala gətirmişdir. Hz. Peyğəmbər Suffa məktəbində əshabına o zülmət qaranlıqdan çıxmanın və İlahi sevginin yolunu öyrətdi. İnsanlığı sevməyi öyrətdi. O məktəbdə sədaqətin simvolu hz. Əbu Bəkr, ədalətin simvolu hz. Ömər, həya abidəsi hz. Osman, elm şəhərinin qapısı hz. Əli yetişdi. Həmçinin Əbu Hüreyrə, Səlman Farsi, Bilal Həbəşi, Ammar bin Yasir kimi ata-anamız sənə fəda olsun, ya Rəsulallah, deyən daha bir neçə səhabə bu məktəbin yetirmələridir.

Hz. Peyğəmbər və onun yetişdirmiş olduğu insanlar, Allahın özlərindən nə gözlədiyinin çox yaxşı fərqində idilər. Davamlı olaraq daha yaxşı hala gəlmək istəyirdilər. Kamil bir imana sahib kamil bir insan olmaq onların ən böyük arzuları idi.

Hz. Peyğəmbər səhabələrini yetişdirərkən əşyanın həqiqətlərini və incəliklərini bilmələri üçün onların "hikmət"ə ehtiyacları olacağını bilirdi. Elə buna görə, Allahın özünə vermiş olduğunu onlardan əsirgəmirdi. Çünki o bilirdi ki, hikmətsiz bir elm, quru məlumatdan başqa bir şey deyil. Hikmət isə, əşyanın iç üzünü bilmək və görəməkdir.

O, səhabələrini yetişdirərkən bir qüsur görsə, həmin məclisdə adama xüsusi deyil, ümumi şəkildə söyləyərdi. Beləcə hər kəs qırılmadan ondan özünə bir pay çıxarardı.

**Nəticə olaraq onu deyə bilərik ki, Peyğəmbər Əfəndimiz, yer üzünün ən vəhşi və bədəvi bir cəmiyyətini yer üzünün ən mədəni cəmiyyətinə necə çevirdisə, bizlər də buna çalışmalıyıq. Çünki zamanımızda çox böyük əskikliklər var. Bunun üçün də səhabələrin necə yetişdiyinə baxmamızda fayda var. Mədinədə nə bir universitet, nə də bir məktəb var idi. Səhabələrin yetişdiyi dönəmdə Peyğəmbər Əfəndimiz Mədinənin hər küçəsini, hər bazarını mədəniyyət və təhsil mərkəzinə çevirmişdi. Demək ki, səhabələrin həyatını yenidən oxumalıyıq. Oxumalıyıq çünki, dünyamızın onlar kimi yetişmiş insanlara ehtiyacı var. Oxumalıyıq çünki, bəzi istedadı olan gənclərimizi doğru yönə yönləndirmək lazımdır. Onlar yetişmiş insanlar idi. Onların həyatları bizim üçün bir mayak olmalıdır. O mayakın işıqlandırdığı yolla yerisək heç zaman fəlakətə düşmərik.**

Hacı BƏKİROĞLU

## GÜRCÜSTAN PARLAMENTİNDƏ HAKİM PARTİYANIN BEŞ FRAKSİYASI OLACAQ

Hakim "Gürcü arzusu" partiyasının parlamentdə beş fraksiyası olacaq.

Prosedur məsələləri və qaydaları komitəsi dekabrın 26-da parlamentdə çoxluğun tərkibində "Gürcü arzusu – mühafizəkarlar", "Gürcü arzusu – sosial-demokratlar" və "Gürcü arzusu – regionların inkişafı üçün" kimi üç fraksiyanın yaradılmasını dəstəkləyib.

İndiyədək parlament çoxluğunun cəmi iki – "Gürcü arzusu" və "Gürcü arzusu – sənayeçilər" fraksiyası fəaliyyət göstərirdi.

Parlamentdə "Vahid Milli Hərəkat" partiyasının iki – "Milli hərəkat" və "Milli hərəkat Gürcüstanın irəliləyişi uğurunda" fraksiyası da fəaliyyət göstərəcək.



"Vətənpərvərlər alyansı" birliyi isə parlamentdə cəmi bir fraksiya ilə təmsil olunacaq.

## REGİONLARIN ƏHALİSİ ÜÇÜN ELEKTRİK ENERJİSİNİN TARİFİ QALXMAYACAQ

Gürcüstan regionlarının sakinləri üçün elektrik enejisi istehlakının tarifləri artmayacaq. Bu barədə Gürcüstanın energetika və su təchizatını tənzimləmə milli komissiyasının iclasında qərara gəlinib.

Dəyişiklik yalnız orta və yüksək gərginlikli elektrik enerjisi istehlakçıları olan böyük kommersiya şirkətlərinə şamil olunur.

Tbilisidə də elektrik enerjisinin istehlak tarifi dəyişməyəcək. Bu qərarı da Gürcüstanın energetika və su təchizatını tənzimləmə üzrə milli komissiyasının dekabrın 26-da keçirilmiş iclasında veriblər.

## "UĞUR" UCALIĞI

İBRAHİMXƏLİL



**Dünya mətbuat tarixində ilk jurnal hesab olunan və 1665-ci ildə Fransada nəşrə başlayan "Journal des Savants"ın üz qabığına o dövr üçün çox tələbkar səslənən sözlər yazılıbmış: "Ancaq erudisiyalı adamlar – oxumuşlar (alimlər) üçün nəzərdə tutulur". O vaxtdan 350 ildən artıq möhlət keçib və indi jurnalların üz qabığına nə yazırlarsa-yazsınlar – "ədəbi-bədii jurnal", "ictimai jurnal", "elmi-kütləvi jurnal", "dini-maarif jurnalı" – hər dəfə mahiyyət təzahürdən irəlidədir: yəni dünyanın dərki ilə özünüdərkin qovşağında olan insan (həyatı) təkcə diri bədəndən, gövdədən ibarət deyil, şüura-idraka malikdir və digər xoş məramlı çağırışlar sırasında "qardaşına xidmət et!" çağırışına da çox vaxt ürəkdən-könüldən qoşulur. Bu xidmətin fəziləti və savabı nə qədərdir – bax, indi haqqında səmimiyyətlə söz açmağa cəhd etdiyim "Uğur" jurnalının əməkdaşları bunu yaxşı bilirlər.**

"Uğur" 2006-cı ildən nəşr olunur. Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının nəşridir. Bəlkə də insanın fərdi inkişafında mühüm yer tutan gənclik və cavanlıq dövrləri ilə daha çox bağlıdır: gənc və cavan "Uğur" çox çətinliklərə, əziyyətlərə uğurla sinə gərdi, özünü reklam eləmədi, gözə soxmadı, heç vaxt görüntü yaratmadı, "tədbirşünas"lıqdan da uzaq durdu.

Mən Qarayazıdan xeyli aralı yaşayıram. Amma "Uğur"un da, təşkilatın digər nəşri olan "Yeni yol" qəzetinin də hər yaradıcılıq uğuruna sevinmişəm və rəğbətimi də heç zaman gizli tutmamışam. Bəlkə də bu, o ucqar üzdəndir ki, mətbu sözümüzdə də, bədii sözümüzdə də – hələ unudulmaz Arif Mustafazadədən də çox-çox əzəllər – bir pünhan "Qarayazı üslubu" mövcuddur və bu üslubun cazibəsi təkcə məni deyil, Əyriqarın ətəklərinə yaxın yaşayan digər qələm qardaşlarımı da orbitindən uzaq düşməyə qoymayıb.

..."Uğur"un redaktoru hörmətli Hacı Bəkiroğlu ilə Gürcüstan Müsəlmanları İdarəsinin hesabat tədbirində tanış olmuşam və buna görə hörmətli şeyximiz Hacı Ramin İgidova buralardan təbarək təşəkkürlərimi bildirirəm. Buna qədər H.Bəkiroğlunun marağımı çəkən köşə yazıları ilə tanış idim.

...Onun Birliyimizin mahiyyətinə dair silsilə düşüncələri – vəzifəmiz sevgi ilə davranmaqdır; bir Allah bir peyğəmbər, bir qiblə; bir bütövün iki parçası (məzhəblər barədə); islamda xidmətin təməl hədəfi – köşələrinin canına-qanına hopdurduğu digər fikirləri də diqqət çəkir, yadda qalır.

İyulun 15-də qardaş Türkiyədə baş verən və az qala düzü-dünyanı silkələyən cəhənnəmi dövlət çevrilişi cəhdi ilə əlaqədar – Türkiyə ilə dolanan bəzi mehtərxanə məddahların susduğu bir vaxtda – "Uğur" 48-ci sayını həmin hadisələrin obyektiv işıqlandırılmasına həsr etdi. Afiq Muxtaroğlunun, Ahmet Taşgetirenin, Sahib Mustafanın, Hacı Bəkiroğlunun bu mövzuda olan yazıları aktuallığını bu gün də itirməyib.

Görünür, unudulmaz Mirzə Cəlil Məmmədquluzadənin 1907-ci ildə yazdığı "Doğrudan da bizə deyən gərək ki, Tiflisdə otura-otura Bakı ilə (oxu: Ankara ilə – İ.) nə işimiz?" kinayəsini anlamayan bəzi mehtərxanə məddahlar heç olmasa bu yerdə "Uğur"dan öyrənməlidirlər: hələ gec deyil!

P.S.

Uğur – təkcə bəxt, səadət və xoşbətlik deyil, həm də qayğı və köməkdir. "Uğur" jurnalının timsalında bunlar eynən gün işığında olanlartək görünür. Üstəlik, bu "Uğur" Yaradan tərəfindən verilən razılıq uğuruna da çox bənzəyir; ona uğurun bu qədər yar olmağı da elə bu arazbarı üzdən olmalıdır! Yoxsa bu ucalıq "Uğur"a bu qədər yaraşardımı?..

**..."Uğur"un uğuruna birinci gün kimlər çıxıbmışsa, Allah onlardan da razı olsun!**



## SURİYA PROBLEMİ VƏ MOSKVA-ANKARA-TEHRAN YAXINLAŞMASI

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Cari ilin dekabrın 20-də Moskvada Rusiya, Türkiyə və İranın xarici işlər nazirlərinin üçtərəfli görüşü Suriya məsələsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Görüşdə Suriya probleminin həll edilməsi üçün mühüm yol xəritəsinin cızılması ilə yanaşı digər gizli məsələlərin də müzakirə ediləcəyi proqnozlaşdırılırdı. Rusiya və Türkiyə münasibətlərinin normallaşması və İranın da bu tandemə qoşularaq regionda güclü siyasi trio əmələ gətirməsi Qərbin istəmədiyi ən arzuolunmaz ssenaridir. Çünki, bölgənin Türkiyə və İran kimi güclü dövlətlərinin Rusiya cəbhəsindən çıxış etməsi Suriya məsləsinin həllinin hansı axarda davam etdəcəyini bəlli etməlidir. Ona görə də, Qərb dünyasının yuxarıda adıgedən trionun baş tutmaması üçün ehtimal edilə bilən hər variantlardan istifadə edəcəyini deməyə əsas verir. Xarici işlər nazirlərinin Moskva görüşü ərəfəsi Rusiyanin Türkiyədəki səfirinin qətlə yetirilməsi "üstüörtülü" sullar yaradır. Hal-hazırda, Moskva və Ankara arasındakı diplomatik rabitənin intensivləşməsini ABŞ və onun avropalı müttəfiqlərinin "qorxunc yuxusu"na bənzətmək olar. Rus səfirinin qətli ilə əlaqədar həm Rusiya, həm də Türkiyə dövlət başçılarının eyni anda, eyni məzmunda bəyanat verməələri artıq bu ilişikliklərin geridönməz olduğunu sübut etdi. Əksinə, sui-qəsdlə bağlı cinayətin ifşa olunması üçün ikitərəfli istintaq qrupunun yaradılması cinayətin "sifarişçi"lərinə "əkssəmərə" verdi.**

Rusiyanın qlobal miqyasda maraqlarını gerçəkləşdirməsi üçün regionun aparıcı dövlətlərinin dəstəyinə ehtiyacı var. Lakin, yaxın gələcəkdə Rusiya, Türkiyə və İranın mühüm bir siyasi alyans yaradacaqları haqqında fikir söyləmək hələ tezdir. Konkret olaraq, Moskva və Tehranın Suriyanın gələcəyi ilə bağlı maraqları biri-birinə yaxın olduğu halda, bunu Anakaraya şamil etmək düzgün olmazdı. Rusiya və İran Əsəd rejmini dəstəklədiyi halda, Türkiyə münaqişənin başladığı andan müxalif qüvvələrin yanında qərar tutmuşdur. Hal-hazırda, Moskva Suriya məsələsində Ankaranı mövqe dəyişikliyi etməyə inandırmağa çalışır. Digər tərəfdən, Türkiyənin Suriyanın şimalında neytral zona yaratmaq təşəbbüsünə tam dəstək verməyən Ağ evin əksinə, kürd yaraqlılarını silahlandırması Ankara ilə Vaşinqton münasibətlərində çatların əmələ gəlməsi ilə nəticələndi. Türkiyədə dövlət çevrilişinə cəhdin xainlərinin də ABŞ-dan idarə olunması ABŞ-Türkiyə bağlarının indiki zaman kəsiyi üçün qopmasına səbəb oldu. Vaşinqton-Ankara münasibətlərinin sərinləşməsini "Ağ ev"də son günlərini yaşayan Obama və onun administirasiyasının uğursuzluğu kimi də dəyərləndirmək olar. Son zamanlar Türkiyədə ard-arda baş verən terror aktları və onların bəlli mərkəzlərdən idarə olunması Ankaranı bir daha qərarlı şəkildə Moskva ilə yaxınlaşmağa vadar edir. Türkiyə də öz növbəsində Suriya labirintindən qalib tərəf kimi ayrılmaq istəyir. Çünki, Suriya böhranının hansı məcrada çözülməsi dünya siyasətinin sonrakı axarını müəyyənləşdirəcəkdir. Ona görə də Suriyanın müxalif qüvvələri ilə rəsmi Dəməşqin siyasi konsensus əldə etməsi üçün Moskva təşəbbüsü ələ almağa can atmaqdadır. Tərəflərin mövqelərinin bir-birinə yaxınlaşdırılmasında müxalif qüvvələrlə münasibətləri sağlam olan Türkiyənin rolu böyükdür. Lakin, vahid müxalif qüvvələr də həm Moskva, həm də Ankaranın maraqlarına zidd olan terrorçu və separatist ünsürlərdən təmizlənməlidir.

Şübhəsiz ki, ABŞ-ın yeni administrasiyası Suriya və İraqda cərəyan edən hadisələrin indiki axarı ilə razılaşmayacaqdır. Əkstəqdirdə bu Vaşinqtonun Yaxın Şərqdə "heç kimə" lazım olmaması və ABŞ-ın tarixi boyu onun hegomon imicinə vurulan ən böyük zərbə deməkdir. Ona görə də "Ağ ev" ilk növbədə Ankara ilə münasibətlərinə ilıqlıq gətirməyə çalışacaqdır. Lakin, indiki zamanda Ərdoğanın Türkiyənin xarici siyasət ritorikasında radikal dəyişiklik etməsi gözlənilmir. Çünki, belə bir dəyişiklik Türkiyənin məğlubiyyətinə bərabərdir.

**Uca Yaradan Türkiyəni qorusun!**

## PUTİN TÜRK LİDERLƏRLƏ BAĞLI FİKRİNİ DƏYİŞDİRDİ

"Səfirin öldürülməsi Rusiya-Türkiyə münasibətlərini korlamayacaq".

Bunu dekabrın 23-də keçirdiyi mətbuat konfransında Rusiya prezidenti Vladimir Putin deyib. O, sözlərini belə əsaslandırıb: "Karlovun öldürülməsi Rusiya-Türkiyə əlaqələrini pozmağa yönəlmiş bir addımdır. Rus təyyarəsinin vurulmasından sonra bu əmri verənlərin məqsədinin Rusiya-Türkiyə münasibətlərini pozmaq olduğu ilə bağlı açıqlamalara şübhə ilə baxırdım. Amma indi həmin fikrə özüm də gəlmişəm. Rus təyyarəsinin vurulması əmrinin arxasında türk liderlərin olması ilə bağlı fikrimi dəyişdirirəm".

## BMT TŞ İSRAİLDƏN YƏHUDİ QƏSƏBƏLƏRİ İNŞASININ DAYANDIRILMASINI TƏLƏB EDİB

BMT Təhlükəsizlik Şurası İsraildən işğal olunmuş Fələstin torpaqlarında yəhudi qəsəbələri inşasını dərhal dayandırmağı tələb edən qətnamə qəbul edib.

Sənədi TŞ-yə üzv olan 14 ölkə dəstəkləyib.

ABŞ-ın nümayəndə heyəti yəhudi dövlətinin qətnamə mətnini əngəlləməyə dair çağırışlarına məhəl qoymayaraq səsvermədə bitərəf qalıb.

Qətnamədə qeyd olunur ki, Şərqi Yerusəlim də daxil olmaqla, işğal olunmuş ərazilərdə məskənsalma fəallığı beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir, həmçinin iki müstəqil dövlətin yaradılması yolunda münaqişənin nizamlanması üçün ciddi əngəl törədir.

BMT TŞ İsraildən "bütün məskənsalma fəaliyyətini dərhal və tam dayandırmağı" tələb edib və hər iki tərəfi terrorçuluğa və zorakılığa təhriketmə ilə mübarizəyə çağırıb.



Təhlükəsizlik Şurasının iclasında iştirak edən BMT-yə üzv dövlətlərin nümayəndələri qətnamənin qəbul olunmasını alqışlarla qarşılayıblar. ABŞ və İsrail diplomatları kənarda qalıb.

## RUSİYA SURİYADAN POLİQON KİMİ İSTİFADƏ EDƏRƏK 162 NÖV SİLAH SINAQDAN KEÇİRİB

Rusiya hərbiçiləri Suriyada 162 növ müasir və modernləşdirilmiş silah sınaqdan keçiriblər. İstifadə olunmuş silahlar yüksək effektivlik göstərib. Bu barədə Rusiya müdafiə naziri Sergey Şoyqu idarənin prezident Vladimr Putinin iştirakı ilə keçirilən yekun kollegiyasında məlumat verib.

Rusiya müdafiə naziri sınaqdan keçirilən silahlar arasında ən yeni Su-30CM aviasiya komplesinin, Mi-28H və Ka-52 helikopterlərinin də olduğunu bildirib. Şoyqu taktiki xarakteristikanın döyüş sursatının yüksək dəqiqliyini təsdiqlədiyini vurğulayıb.

O, Suriyada üzə çıxan çatışmazlıqlara görə 10 silah nümunəsinin alışının dayandırıldığını bəyan edib. Şoyqunun sözlərinə görə, orada aşkarlanan çatışmazlıqlar poliqon sınaqlarında özünü bürüzə verməmişdi.

Noyabrın 15-də prezident 2016-cı ilin sonlarınadək silahlı qüvvəllərdə müasir silah və texnikanın payının 50 faizdən çox olacağını bildirmişdi.

Hal-hazırda Rusiyada 2011-2020-ci illər üçün silahlanma proqramı gerçəkləşdirilir. Bu proqram çərçivəsində silahlı qüvvələrin yenidən təchiz edilməsi üçün 20 trilyon rubl xərclənməlidir. Proqramın həyata keçirilməsi nəticəsində yeni silah və hərbi texnikanın payı 70 faiz təşkil etməlidir.

## 2015-Cİ İL ÜZRƏ ƏN ÇOX SİLAH İXRAC EDƏN ÖLKƏLƏRİN SİYAHISI AÇIQLANIB

ABŞ silah satışına dair 40 milyard dollar həcmində müqavilə bağlayaraq, 2015-ci ildə silah satışı üzrə dünyada liderliyini qoruyub. Rusiya bu siyahıda ABŞ və Fransadan sonra üçüncü olub. Silah satışından Rusiyanın gəlirləri 2015-ci ildə 11,1 milyard dollar təşkil edib. Xatırladaq ki, 2014-cü ildə Rusiyanın göstəricisi 11,2 milyard dollar təşkil edirdi.

Bu barədə konqresin araşdırma xidmətinin məruzəsinə istinadən New York Times qəzeti yazıb.

ABŞ-ın yaxın təqibçisi olan Fransanın 2015-ci ildə silah ticarətindən qazancı 15 milyard dollar təşkil edib. 2015-ci ildə Çinin də silah satışından qazancı xeyli böyükdür. Belə ki, o, hesabat dövründə silah ixracından 6 milyard qazancla çıxıb.

2015-ci ildə ən böyük silah idxalçısı Qatar olub. Bu dövlət 17 milyard dollarlıq silah almaqla idxalçılar arasında birinci olub. Onu 12 milyard dollar məbləğində silah alan Misir təqib edib. 2015-ci ilin silah idxalçıları siyahısında Səudiyyə Ərəbistanı hərbi təyinatlı məhsullar alınmasına 8 milyard dollar pul xərcləyərək, üçüncü pilləni tutub.

2014-cü illə müqayisədə 2015-ci ildə bütün dünya üzrə silah ticarətinin həcmi 9 milyard dollar azalaraq 89 milyard dollardan 80 milyard dollara düşüb.

## NARKOBARONLARI ŞƏXSƏN GÜLLƏLƏYƏN PREZİDENT YENƏ OD PÜSKÜRDÜ

Filippin prezidenti Rodriqo Duterte onun məhkəmədə cavab verməsini istəyən BMT-nin İnsan Haqları üzrə komissarı Zeyd Raad El Hüseyni "axmaq" adlandırıb.

El Hüseyni təhqir edən Rodriqo BMT-nin diplomatiyadan başı çıxmadığını deyib.

"Bu adam ya zarafat edir, ya da axmaqdır. Axmaq, mənə nə edəcəyimi öyrətmə. Sənə bu haqqı kim verib? BMT diplomatiyanı bilmir. BMT-nin əməkdaşı olaraq necə davranacağını bilmirsən. Mənimlə bu formada danışa bilməzsən", – deyə o, El Hüseynə təhqir dolu ifadələr yağdırıb.

Qeyd edək ki, Rodroqo Duterte prezident olduğu müddətdə üç narkobaronu şəxsən öldürdüyünü etiraf edib. Bu ifadədən sonra Zeyd Raad El Hüseyn onun məsuliyyətə cəlb olunmasını tələb edib.

R.Dutertenin qalmaqallı fikirləri bununla bitməyib. Filippin prezidenti BMT-ni yandırmaqla hədələyib.

"BMT-yə şikayətə gedə bilərsiniz. Əgər Amerikaya getsəm, BMT-ni yandıracam", – deyə o bildirib.

Onun belə çıxış etməsinə səbəb isə BMT komissarı Zeyd Raad El Hüseynin tələbindən sonra Filippindəki hüquq müdafiəçilərinin də buna qoşulması olub. Hüquq müdafiəçiləri BMT-yə müraciət edərək, narkobaronların öldürülüməsini tələb ediblər. Məlumata görə, R.Duterte hakimiyyətə gələndən sonra ölkədə narkotik ticarəti ilə məşğul olan 6 mindən çox insan öldürülüb.

## GÜRCÜSTAN PREZİDENTİ 175 MƏHKUMU ƏFV ETDİ

Gürcüstan prezidenti Georgi Marqvelaşvili 175 məhkumu əfv edib. Bu barədə dekabrın 27-də prezident administrasiyasında keçirilən mətbuat konfransında Əfv komissiyasının sədri Zviad Koridze məlumat verib.

Onun sözlərinə görə, 122 məhkum həbsxananı elə bu gün tərk edəcək, 53 nəfərin cəza müddəti isə azaldılacaq.

Koridze bəyan edib: "Gürcüstan prezidenti 175 məhkumu əfv edib. Onlardan 122-si cəzaçəkmə yerlərini elə bu gün tərk edəcəklər. 53 məhkumun çəzaçəkmə müddəti azaldılacaq. Komissiya dekabrın 13-dən 20-dək işləyib. 1142 adamın işinə baxılıb, konkret tövsiyələr hazırlanaraq prezidentə göndərilib, prezident də bu gün əfv aktı imzalayıb. Əfv olunanlar arasında 14 qadın var. Onlardan 12-si elə bu gün cəzaçəkmə yerlərini tərk edəcək, ikisinin isə cəza müddəti azaldılıb".

## GÜRCÜSTANDA POLİSLƏRİN HAMISININ PLANŞETİ OLACAQ



Gürcüstan DİN bütün polislər üçün planşetlər əldə etmək niyyətindədir. Bu barədə cinayət statistikası ilə bağlı QHT nümayəndələri ilə görüşündə nazir müavini Şalva Xutsişvili bəyan edib.

Nazir müavini təxminən 2018-ci ilin sonlarına doğru bütün polislərin planşet bilgisayarlarla təmin ediləcəyini, bundan sonra DİN-də uçot sisteminin tamamilə elektron formaya keçəcəyini bildirib. Onun məlumatına görə, hal-hazırda planşetlərin seçimi üzərində iş gedir.

Xutsişvilinin bəyanatına görə, artıq "112" xidmətinə, polisə edilən şikayətlərin və ya polisin qeydə aldığı pozuntuların daxil olduğu elektron proqram mövcuddur. Layihə pilot rejimində Rustavi, Qori və Tbilisinin Didube rayonunda həyata keçirilir. DİN fefraldan onlara daha bir neçə rayon qoşmağı da nəzərdə tutur.

Nazir müavini əlavə edib ki, elektron proqram əsasında polisin daxili sistemində məlumat qeydə alındıqdan sonra kriminal polis əməkdaşları avtomatik olaraq mobil qurğuda bu məlumatı alıb, cavab verirlər. Proqrama polisin hansı növ fəaliyyət həyata keçirdiyini göstərən xəritə də əlavə olunur.

## GÜRCÜSTANDA CİNAYƏT STATİSTİKASI İLDƏ BİR DƏFƏ DƏRC OLUNACAQ

Gürcüstanda baş vermiş cinayətlərin statistikası başqa cür şərh edilməkdən qaçmaq üçün ildə bir dəfə dərc olunacaq. Bunu jurnalistlərə ölkənin daxili işlər naziri Georgi Mqebrişvili bildirib.

Əvvəllər DİN cinayət statistikasını aylıq dərc edirdi.

"Bir çox adamların başqa cür şərh etmə imkanları lap çoxdur. Onlar bu statistikanı istədikləri kimi də oxuyurlar. Mən sizə bir daha deyirəm, məni və bütün daxili işlər nazirliyini divara dirəyib az qala hər həftə baş vermiş cinayətlər haqqında məlumat tələb etmək şəklində deyil, bütün sivil ölkələrdə olduğu kimi statistika ilin sonunda hesablanacaq" – Mqebrişvili deyib.

Nazir qeyd edib ki, heç bir qanun statistik məlumatları yaymağı DİN-nin öhdəsinə qoymur.

## GÜRCÜSTAN ORDUSUNDA ZABİTLƏR İXTİSAR EDİLİR

Gürcüstan öz ordusunun ali zabit heyətini ciddi şəkildə ixtisar edəcək.

Bunu jurnalistlərə açıqlamasında Gürcüstan Müdafiə naziri Levan İzoriya söyləyib.

"Hazırda bizim orduda 266 polkovnik var. Onlardan yalnız 155-i real xidmət keçir. Biz onların sayını 100-ə qədər azaltmaq niyyətindəyik".

Gürcüstanın "Arsenal" jurnalı isə orduda yüksək rütbəli zabitlərin ixtisarının səbəblərini müəyyən etməyə çalışıb. Jurnal Tiflisin bununla ordunu gəncləşdirmək istədiyini bildirib:

"Gürcüstan ordusunda polkovnik üçün yaş senzi 55-dir. Bundan əlavə vitse-polkovniklər 50, kapitanlar isə 45 il hərbi xidmət keçə bilərlər. Bu şəxslər çalışırlar ki, ən axırıncı məqama qədər xidmət etsinlər. Nəticədə orduda dövlət hesabına Qərbdə təlim keçmiş gənc zabitlərin karyera artımı zəifləyir. Gənc zabitlər isə bunun ucbatından tez-tez öz istəkləri ilə ordudan ayrılırlar ki, bu da ordunun döyüş qabiliyyətini azaldır".

İxtisara düşən polkovniklərin birdəfəlik 28 lari kompensasiya alacağı bildirilir. Ordudan təxris ediləcək digər zabitlərin də böyük kompensasiya alacaqları nəzərdə tutulur.

Qeyd edək ki, buna qədər artıq Gürcüstanda yüzədək hərbi polis əməkdaşı işdən azad olunub.

Xatırladaq ki, hazırda Gürcüstan ordusu 37 min nəfər canlı qüvvədən ibarətdir.

## GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ NATO-NUN GENİŞ SAMMİTİNDƏ İŞTİRAK EDƏCƏK

Gürcüstanın müdafiə naziri Levan İzoriya NATO-nun geniş sammitində iştirak edəcək. Bu məlumatı ölkənin müdafiə nazirliyi yayıb. Müvafiq bəyanatla müdafiə nazirinin özü də çıxış edib.

Nazirliykdən Brüsseldə keçirilməsi nəzərdə tutulan məhdud formatlı sammitdə yalnız alyansa üzv olan ölkələrin iştirak edəcəklərini bildiriblər.

"Sammitin adıçəkilən formatı ABŞ-ın yeni administrasiyasının formalaşması ilə əlaqədardır. Bu sammit ABŞ-la birgə əməkdaşlıq və münasibətlərin formalarını planlaşdırmaq üçün keçirilir.

Eyni bəyanatla dekabrın 2-də Brüsseldə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili ilə görüşündən sonra Yens Stoltenberq də çıxış etmişdi" – müdafiə nazirliyində vurğulayıblar.

Xatırladaq ki, dekabrın 2-də NATO-nun baş katibi Yens Stoltenberq belə demişdi: "Biz gələn il sammit keçirmək qərarına gəlmişik, lakin bu kiçik formatlı sammit olacaq. 2017-ci ildə sammit keçiriləcək, bu sammit ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın NATO üzvləri ilə görüşməsini təmin edəcək. Bizim 2001-ci ildə Buş prezident seçilərkən, eləcə də 2009-cu ildə bu cür sammitlərimiz olub. Sammitin dəqiq nə vaxt keçiriləcəyini demək tez olsa da, böyük ehtimalla sammit çərçivəsində çox görüşlər olmayacaq, belə ki, onun əsas məqsədi NATO-nun və yeni prezidentin görüşüdür".

## MUASİR DÖVRDƏ HƏLƏ DƏ İRQÇİLİYİN VAR OLMASI...



Anar RAFİQOĞLU

**İrqçilik və ya bir başqa adı ilə rasizm dünyada önəmli bir problem olmaqda davam edir. Keçmişə nisbətən irqçilik artıq yavaş-yavaş azalmağa başlasa da, bu gün hələ də irqçiliyin geniş yayıldığı bir çox ölkələr mövcuddur. "Vaşinqton Post" qəzetində dərc olunan və 30 il ərzində 80-dən artıq ölkədə aparılmış araşdırmanın nəticələrinə görə, dünyanın ən irqçi ölkələri açıqlanıb. Belə ki, Banqladeş, İordaniya, Hindistan və Honkonq başqa millətlərə qarşı ən tolerant olmayan ölkələr sırasında liderlik edirlər. Bu ölkələrdə aparılan sorğuda əhalinin 40 faizi başqa millətdən olan insanın qonşuluğunda yaşamasını istəmir. Misir, Səudiyyə Ərəbistanı, İran, Vyetnam, İndoneziya və Cənubi Koreya kimi ölkələr də tolerantlığın az olduğu ölkələr arasında yer alır. Araşdırmaya görə, Avropanın ən irqçi ölkəsi Fransa, daha çox tolerant olan ölkələr isə Skandinaviya və Latın Amerikası ölkələridir.**

İndi gəlin irqçilik mövzusuna daha geniş pəncərədən baxaq. Öncəliklə irqçilik nədir? İrqçilik bir neçə cür olur. Məsələn, bir insanı sırf rənginə görə sevməmək. Bu əsasən keçmişdə avropalıların başımıza belə etdiyi bir irqçilik növüdür. İlk dəfə avropalılar kəşfləri sırasında özləri kimi ağ olmayan irqlərlə qarşılaşdılar. Ağ irqin üstün olduğu düşüncəsi ilə müstəmləkə müharibələri və qul ticarəti sürətlə yayılmağa başladı. Afrikadan gətirilən minlərcə qaradərililər çox ağır şərtlərdə, hər gün qamçılanaraq, boğazları zəncirə bağlı şəkildə ağır işlərdə çalışdırılırdılar.

Bu gün hər etdiklərini örnək götürdüyümüz, onlar kimi olmağa çalışdığımız, mədəniyyətin beşiyi dediyimiz Avropada çox yox, bundan 55-60 il əvvəl öncəsinə qədər Belçika, Hollandiya, İspaniya, Fransa, Macarıstan, Almaniya, İsveç, İtaliya kimi ölkələrdə afrikalı insanların sərgiləndiyi "insan zooparkları" fəaliyyət göstərirdi. Bəli, yanlış oxumadınız. İnsanları bir meymun kimi qəfəsə salıb tamaşa edirdilər. Sadəcə Avropadamı? Əlbəttə ki, xeyir. ABŞ-da da "insan zooparkları" fəaliyyət göstərirdi. Ancaq ABŞ üçün bu fakt elə də təəccüblü görünmür. Nəzərə alsaq ki, bu ölkədə bir zamanlar qaradərili insanların adi səsvermə hüquqları belə yox idi, onda çox da təəccüblənməmək lazımdır. Elə indinin özündə də ABŞ-ın bəzi əyalətlərində ağdərili insanlarla qaradərili insanlar arasında ciddi sıxıntılar yaşanır. Yeri gəlmişkən, irqçiliklə bağlı ən ibrətamiz filmlərdən biri olan "American History X" – dilimizdə "Amerikan İks tarixi" olaraq tərcümə olunan filmi izləməyinizi məsləhət görürürəm. Bu film ABŞ-da irqçiliyin hansı hədlərdə olduğunu, irqçiliyin sonu və heç bir faydası olmadığını gözlər önünə sərir. Nə isə. Filmi bir kənara qoyub qayıdaq mövzumuza.

Nəzərə alaq ki, irqçilik sadəcə insanların rənginə görə edilmir. Eyni rəngdən olsan da, bəzən eyni millətdən olmadığın üçün irqçiliyə məruz qalırsan. Yaxın keçmişdə milli mənsubiyyətinə görə irqçilikdən ən çox əziyyət çəkmiş millət isə yəhudilərdir. İkinci dünya müharibəsi sırasında Hitler Almaniyası tərəfindən təqribən 6 milyon yəhudinin öldürüldüyü bilinir. Çox uzağa getməyə də ehtiyac yoxdur əslində. Elə özümüzdən də nümunə göstərə bilərik, Xocalı soyqırımında amansızca qətlə yetirilən körpələrin, yaşlıların, qadınların nə günahı var idi? Bütün bunlar sırf bir millətə duyulan nifrətin və onun nəticəsində yaranan irqçiliyin günahıdır. İrqçilik bu həddə çatmasa, insanların gözünü kor, qəlbini daşa döndərməsə, bəlkə də dünyada heç bir millət soyqırıma məruz qalmazdı.

İstər rəngə görə, istərsə də milli kimliyə görə, hər nə səbəbdən olursa olsun, gerçək budur ki, irqçilik əsrlərdir insanlığın başına bəladır. Və elə görünür ki, irqçiliklə bağlı mübarizədə beynalxalq səviyyədə ciddi addımlar atılmasa hələ başımız çox ağrıyacaq.

**Son olaraq unutmayaq ki, heç bir insanın öz millətini, doğulacağı ölkəsini, valideynlərini seçmək öz əlində deyildir. Bütün bu problemlər əslində insanlarda empatiya hissinin olmamasından əmələ gəlir. Özümüzü başqalarının yerinə qoymalıyıq. Bu gün söydüyümüz, nifrət etdiyimiz bir millət varsa, unutmayaq ki, biz də həmin millətin nümayəndəsi ola bilərdik. Hansısa bir insanı rənginə görə bəyənmiriksə, biz də həmin rəngdə ola bilərdik...**

# HƏMYERLİMİZ SAİT RÜSTƏMİN ANKARADA HEYKƏL SƏRGİSİ AÇILIB

*Oxucularımıza qısaca məlumat verək ki, Sait Rüstəm Qarayazının Nəzərli kəndində dünyaya göz açıb. Hazırda Türkiyədə yaşayıb, yaradır. Onun 60 illik yubileyi münasibətilə Ankarada açılmış heykəl sərgisi ilə bağlı Türkiyənin TRT Azərbaycan saytının hazırladığı reportajı (http://www.trt.net.tr/azerbaycan/m-d-niyy-t-v-s-n-t/2016/12/28/ozumu-60-deyil-25-yasimda-hiss-etdim-s-rust-m-639433) oxucularımızın diqqətinə təqdim etməyi məqsədəuyğun hesab etdik. Biz də qəzetimizin, eləcə də oxucularımızın adından Sait Əhməd oğlunu 60 illik yubileyi münasibətilə təbrik edir, görkəmli sənətkara yaradıcılıq uğurları arzulayırıq.*

***"Yeni Yol"***




**"Sait Rüstəm heykəl sərgisi" dekabrın 27-si Ankarada seyrçilərinin üzünə açıldı.**Tədbir Azərbaycanın Türkiyədəki səfirliyi və Beynəlxalq Türk Kültürü Təşkilatı Türksoyun birgə təşkilatçılığı gerşəkləşdi.

Rəssam-heykəltaraş Sait Rüstəmin 60 yaşı münasibətilə keçirilən sərginin açılışında Azərbaycanın Türkiyədəki Səlahiyyətli və Fövqəladə səfiri Faiq Bağırov, Türksoyun Baş katibi Düsen Kaseinov, müavini Fırat Purtaş, Türksoyun Azərbaycan nümayəndəsi Elçin Qafarlı, Azərbaycan Diasporunun Türkiyə təmsilçisi Əflatun Nemətzadə, Türkiyə və Azərbaycan ziyalıları, ölkənin media qurumları, TRT Avaz çəkiliş qrupu, o cümlədən, rəssamın yaxınları iştirak edirdi.

Türksoyun Baş katibi Düsen Kaseinov açılış nitqində Türkiyənin bir çox bölgələrini Sait Rüstəmin heykəllərinin bəzədiyi, müxtəlif ölkələrdə sərgilərinin keçirildiyi və Türkiyədə onun adının "Azərbaycan əsilli heykəltəraş" kimi tanındığından danışdı. Çıxışının sonunda rəssama ümumtürk dünyasına göstərdiyi xidmətlərə görə Türksoyun mükafatını təqdim etdi.

Azərbaycanın Türkiyədəki Səlahiyyətli və Fövqəladə səfiri Faiq Bağırov da öz növbəsində rəssamın yaradıcılığına toxundu: "Sait Rüstəm Azərbaycanın Türkiyədə fəxr ediləsi yaradıcı insanlarından biridir. 24 ildir ki, qardaş ölkədə böyük heykəllərin yaradılması və qoyulması ilə tanınır. Sait Rüstəm bizim üçün həm də ona görə qiymətlidir ki, nə qədər işləri olsa, durmadan çalışsa da, yaşadığı Ankarada və Türkiyənin digər şəhərlərində keçirilən, Azərbaycan adı gələn və dəvət olunan bütün tədbirlərdə ürəkdən iştirak edir. Bu gün biz – Azərbaycanın Türkiyədəki Səfiriliyi də ona öz mükafatımızı təqdim etməkdən qürur duyuruq. Eyni zamanda, ona Azərbaycan bayraqlı saat hədiyyə veririk."



Azərbaycan Diasporunun Türkiyə təmsilçisi Əflatun Nemətzadə çıxışında rəssam-heykəltaraşın əsərlərinin estetik tərəflərinə toxundu, bu yaradıcı nümunələrdə türklüklə beynəlmiləl atributların sintezindən, dünyəvi xarakterindən danışdı. Nemətzadə onu da nəzərə çatdırdı ki, "Sait Rüstəm böyük heykəlləri yaradarkən Türkiyənin də rəssam və heykəltaraşlarını cəlb edir. Ankarada Rəsm-Heykəl Muzeyində çalışaraq Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin sifarişlərini yerinə yetirən Saitin heykəltaraşlığının Türkiyədə böyük və şərəfli nümunələri çoxdur. Ona qədər ölkədə İtaliya və Almaniyadan çox sayda rəssam və heykəltəraş çalışmışdı. Bir azərbaycanlı olaraq Türkiyədə yaranan heykəltaraşlıq məktəbinə bizim Sait Rüstəmin də xüsusi payı oldu. Ankaranın Polatlı rayonunda, Əskişəhər istiqamətində "Dur, yolcu" adlı Mehmetçik abidəsi. Bu məkan Qurtuluş savaşının, Sakarya döyüşünün dönüş nöqtələrindədir. Həmin abidə Saitin Türkiyədəki ilk ən böyük əsəridir. Və ya İzmirdə Çeşmədə "Barış" adlı əlində göyərçinlər olan bir qadın heykəli. Nevşəhərdə Yunus Əmrə, Ankarada İbn Sina, İstanbulda Mehmet Fatehin heykəlləri. O, Türkiyənin qəhrəman qadınlarını da unutmayıb, belə fədakar igid qadınlardan biri olan Yanğın Əminəyə heykəl ucaldıb. Biz bu əziz gündə Azərbaycan-Türkiyə qardaşlığını möhkəmləndirən canlı nümunələrdən biri olan Sait Rüstəmi 60 yaşı münasibətilə təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzu edirik".

Türkiyə ziyalılarından sonra sonda səbəbkarın özü – Sait Rüstəm çıxış etdi və dedi: "Haqqımda o qədər gözəl sözlər deyildi ki, mən özümü 60 deyil, 25 yaşımda hiss etdim. Çox sağ olun yaradıcılığıma bu dəyəri verdiyiniz üçün. Amma bunu da mütləq qeyd etməliyəm ki, o ki deyirlər "hər güclü kişinin arxasında bir güclü qadın var", bu doğrudan da belədir. Mənim bu ağır işlərimin əziyyətini bölüşən, məni olduğum kimi anlayan, həm mənəvi, həm də fiziki dəstək göstərən həyat yoldaşım Flora olub ki, bu gün yenə ona dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Azərbaycan qədər sevdiyim Türkiyəyə də mənə verdiyi yüksək qiymətə görə təşəkkür edirəm".

**Qeyd edək ki, Ankarada Türksoyun binasında azərbaycanlı rəssam-heykəltaraş Sait Rüstəmin 60 yaşı münasibətilə təşkil edilən "Sait Rüstəm heykəl sərgisi" 2017-ci il yanvar ayının 10-una qədər seyrçilərinin üzünə açıq olacaq.**

## VII-IX SİNİF ŞAGİRDLƏRİNİN DAHA ÇOX ASUDƏ VAXTLARI OLACAQ

Biz çalışırıq elə edək ki, 7-9-cu sinif şagirdlərinin daha çox boş vaxtları olsun, yuxarı sinif şagirdləri isə daha çox akademik müvəffəqiyyətə yönəlsinlər. Təhsil və elm naziri Aleksandr Cecalava planlaşdırılmış islahatların təqdimatı zamanı bildirib.

Cecelava təhsil sisteminin islahat proqramının hazırlanması üçün yüzlərlə pedaqoqla görüşdüyünü, islahatın məhz onlarla, şagird və valideynlərlə razılaşma əsasında tərtib edildiyini vurğulayıb.

Nazir pedaqoqlardan, şagirdlərdən və valideynlərdən vəziyyətdən çıxış və inkişaf imkanlarını öyrəndiyini qeyd edib. Cecelavanın sözlərinə görə, artıq birinci sinifdən altıncı sinfədək yeni milli plan var, yuxarı siniflər üçünsə tədris planı gələcəkdə təsdiq olunacaq.

Aleksandr Ceclava deyib: "Bu gün şagirdlərimiz çox yüklənib. 7-9-cu siniflərdə dərslər və ev tapşırıqları çox azdır, 11-12-ci siniflərdə isə bu yük bəzən kifayət qədər deyil. Şagirdlərin ailələri uşaqlarının ali təhsil müəssisələrində təhsllərini davam etdirmələri üçün repetitorların köməyindən istifadə edirlər. Biz çalışırıq elə edək ki, 7-9-cu sinif şagirdlərinin daha çox boş vaxtları qalsın, sinifdənxaric fəallıqları daha çox olsun və onlar daha çox akademik müvəffəqiyyətə istiqamətlənsinlər. İnanıram ki, bu, onların nəticələrini xeyli yaxşılaşdıracaq və onları böyük həyata hazırlayacaq".

## GÜRCÜSTANIN TƏHSİL NAZİRLİYİ ABİTURİYENTLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ QAYDALARINI DƏYİŞİR

2017-ci ildən tələbələrin maliyyələşdirilməsi qaydaları dəyişir. Təhsilin strateji inkişaf planının təqdimatı gedişində təhsil və elm naziri Aleksandr Cecelava yaxın gələcəkdə təhsilin maliyyələşdirilməsinin yeni modelinin cəmiyyətə təqdim ediləcəyini bildirib.

Nazir mövcud maliyyələşdirmə modelinin günün tələblərinə cavab vermədiyini vurğulayıb. Cecelavanın fikrincə, yeni sistem ölkənin iqtisadi ehtiyaclarına uyğunlaşdırılmalıdır.

Nazir vurğulayıb: "Biz gəncləri o sahələrdə, o istiqamətlərdə maliyyələşdirməyə cəhd edirik ki, onlar həmin sahələrdə bizə daha çox gərəkdirlər. Akademik müfəvvəqiyyət maliyyə almaq üçün həlledici olmalıdır. Bu komponent hazırkı sistemdə nəzərə alınmır. Məlumdur ki, bu gün, əgər tələbə bir dəfə qrant alırsa, akademik nəticələr nəzərə alınmadan onu sonadək alır".

Nazirin fikrincə, abituriyentin bir dəfə hazırlaşıb qrant alması, sonra oxumaması düzgün deyil. Eyni zamanda digər abituriyent Milli imtahanlarda aşağı qiymətlər ala bilər, lakin sonra universitetdə çox yaxşı oxuyar. Buna görə maliyyələşdirmə qaydasını mütləq akademik müvəffəqiyyətlə bağlamaq lazımdır.

Cecelava iki aydan sonra bu sahədə tətbiq olunacaq yeniliklərin bəlli olacağını bildirib.

## GÜRCÜSTAN TƏHSİL NAZİRLİYİNDƏN 250 NƏFƏR AZAD OLUNACAQ

Gürcüstanın təhsil və elm naziri Aleksandr Cecelava nazirliyin aparatında yenidənqurma həyata keçirilməsini istisna etməyib.

Nazirlikdə nəzərdə tutulan yenidənqurma haqqında danışan nazir, resurs mərkəzlərdə hüquqşünasların sayının iki dəfə azaldılmasının nəzərdə tutulduğunu bildirib. Cecelavanın sözlərinə görə, resurs mərkəzlərin 73 rayon şöbəsinin hərəsində bir hüquqşünas çalışır və yenidənqurma nəticəsində 36-37 hüquqşünas qalacaq. Nazir optimallaşdırmanın audit xidmətinin regional nümayəndələrinə də aid olacağını vurğulayıb. Cecelava məktəblərdə maliyyə ehtiyatlarını qorumaq məqsədilə internet üzrə mütəxəssislərin işləməsi əvəzinə internet kompaniyaların xidmətindən istifadə olunmasını məqsədəuyğun hesab edir.

Aleksandr Cecelava nazirlik aparatında işləyənlərin yenidən təşkil olunmasını da istisna etməyib. "Birinci növbədə bundan başlayacam, hər hansı digər xidmətə toxunmaq düzgün olmazdı. Təhsilin keyfiyyəti ilə bağlı olan xidmətlərdə maarif əməkdaşlarının sayı və əməkhaqqı artırılacaq" – nazir qeyd edib.

Cecelavanın sözlərinə görə, yenidənqurma işləri nəticəsində 200-250 adam işini tərk etməli olacaq.

# GÜRCÜ YAZIÇISI QRİQOL ROBAKİDZE VƏ ONUN ÜÇÜNCÜ SAHİLİ...

*(əvvəli qəzetimizin ötən sayında)*

**Bu illərdə Robakidzenin pyesləri Gürcüstan teatrının səhnəsində uğurla oynanılır. Onun "Londa", "Malştrem", "Lamara" dramları bu deyilənlərə yaxşı misaldır.Yeri gəlmişkən, adını çəkdiyimiz "Lamara" əsəri 1930-cu ildə Moskvada uğurla oynanılmışdı və tamaşaçılar arasında Stalin də vardı.**

1925-26-cı illərdə, Sovet hökumətinin hələ tam möhkəmlənmədiyi, nisbətən "demokratik" çağlarında Tiflisdə nəşr olunan "Mnatobi" juranalında məşhur "İlan dərisi" romanı nəşr edildi. Bu əsər digər dillərdə "İlan köynəyi", "İlan qabığı" adı ilə də nəşr edilib. Həmin roman Qərbi Avropada geniş şöhrət qazanıb. Əsər vaxtilə Almaniyada Stefan Sveyqin təqdimatı ilə nəşr olunub.

"İlan köynəyi" bir sıra Qərb ölkələrində nəşr edilib uğur qazansa da SSRİ-də ədəbiyyat məmurları tərəfindən ya soyuq, ya da tənqidlə qarşılandı. Partiya mənsublu tənqidçilər belə bir iddiada bulunurdular ki, guya bu əsər burjua cəmiyyətinin oxucuları üçün qələmə alınıb, "milli xüsusiyyətlərdən" uzaqdır. Əsərdəki hadisələr inqilabdan əvvəl baş verir. Amma yazıçının qələmə aldığı hadisələr sanki "yaxın günlərdə" baş verirdi.

Artıq bütün SSRİ-də olduğu kimi, Gürcüstanda da repressiyalar başlamışdı. Müstəqil düşüncə sahiblərinə, ziyalılara divan tutulurdu. Xüsusilə xaricdə, Avropa ölkələrində təhsil alanlara potensial düşmən kimi yanaşılırdı. Qarşıdan gələn təhlükəni Robakidze yaxşı duyur və görürdü.

1931-ci ildə Şota Rustaveli adına teatrın kollektivi xaricə qastrola gedir. Robakidze də heyətin tərkibinə qatılmışdı. Həmin səfərdə yazıçı Almaniyada qalmağı qərara alır. Tezliklə öz vətənində onun adını çəkmək yasaq olur. Əsərləri kitabxanalardan yığışdırılır. Keçmiş dostlar da ondan üz çevirməyə məcbur oldular. Sanki Gürcüstanda heç zaman belə bir yazıçı olmayıbmış.

Robakidze yazırdı: "Sovet İttifaqında düşünürlər ki, mən əks tərəfdəki sahildəyəm. Onlar səhv edirlər. Mən üçüncü sahildəyəm. Hər bir çay bu cür üçüncü sahilə malikdir. O üçüncü sahildə olmayan adamdan nə yazıçı çıxa bilər, nə də sənətkar".

Robakidze mühacirət dövründə özünün bir sıra əsərlərini, çox yüksək səviyyədə bildiyi alman dilində qələmə alır. Stefan Sveyq, Romen Rollan kimi dünya şöhrətli yazıçılar gürcü ədibi haqda təqdiredici məqalələr yazırlar.

Tədqiqatçılar Robakidzenin Avropada yaşadığı dövrü onun həyatının həm yüksəliş, həm də faciəli mərhələsi kimi qiymətləndirirlər. Həqiqətən, o dövrdə yazıçının əsərləri Qərbdə məşhur idi.

Amma məsələ burasında idi ki, Robakidze alman ədəbiyyatı ilə yanaşı, alman nasizminə, daha doğrusu faşizmə də müəyyən rəğbət bəsləyirdi. Onun 1939-cu ildə qələmə alınmış "Adolf Hitler. Xarici şairin baxışı" və 1940-cı ildə nəşr olunmuş "Mussolini. Günəşlə manşırlanmış" adlı bestsellerlərdə faşizmə bəraət aydın hiss olunurdu. Bu rəğbətinsə öz konkret səbəbi vardı: yazıçı belə hesab edirdi ki, faşizmin qələbəsi dünyada sosializm xofunu aradan qaldırarsa, onun vətəni Gürcüstanda isə müstəqilliyi yenidən bərpa edə bilər.

Yeri gəlmişkən, yazıçının Stalin haqda da əsəri vardır. Hesab edirəm ki, Qriqol Robakidzenin "Stalin Əhrimənin ruhu kimi" adlı yazısı diktator haqda qələmə alınmış ən yaxşı tədqiqatlardan biridir. Yazıçı öz "qəhrəmanının" (Stalinin) simasında Avestdakı şər allahının yeni bir ampluada zühur etdiyini göstərir. Məşhur Şərq abidəsində şəri qoruyan Əhrimən xeyirin təcəssümü olan Hörmüzə qarşı vuruşduğu kimi, Stalin də xeyirə qarşı çıxıb. Ruhani məktəbinin keçmiş şagirdi Stalin bolşeviklərlə ünsiyyətdən sonra əmin oldu ki, Allah yoxdur. O, bundan sonra özünü tamamilə azad hesab etməyə başladı. O, dərk etmirdi ki, Allahla rabitəsini itirən adam elə kainatla əlaqəsini də itirir. Yazıçı vurğulayırdı: ola bilsin ki, Stalin allahsızlıqdan yaranan boşluğu özü doldurmaq istəyirdi.

Robakidze Stalini obrazlı şəkildə belə səciyyələndirirdi: "Köhnə dünya ilə onun haqq-hesabı qurtarmışdı. Onunçün nə nəsil, nə xalq, nə inam, nə ruhi bağlılıq mövcud deyildi. Xalqı kütlə, ruhu isə sinif əvəz etmişdi. Bu məsələdə o öz stixiyasında idi. Sosialist ideyasının təcəssümü üçün o tam yetkin idi. Romantikaya və utopiyaya meyli olmadığı üçün Sen-Simonun və Furyenin təlimi onu maraqlandırmırdı. Amma Marksın doktrinası onun şüurunu zəbt etmişdi. Artıq burada həm məntiq, həm də möhkəmlik vardı. Stalin – anadangəlmə bolşevikdir. Nə zamansa başqa adamı xtistianlıqdanəvvəlki xristian adlandırıblar. Stalini tam hüquqla bolşevizməqədərki bolşevik adlandırmaq olar.

Gürcüstana qeyri-leqal ədəbiyyat Rusiyadan daxil olurdu. Həmin ədəbiyyatlar sırasında arabir Leninin də məqalələri gözə dəyirdi. Həmin yazılar Stalini cəzb etmişdi. Onunçün həyat yenidən başlamışdı. Stalin Leninin ideyalarında kor kimi qarasına gedib gəzdiyi şeyi – marksizm ideyayasının dominizmini əldə etmişdi. Qərbdə "söz"



olan bir şey Şərqdə "iş" olmalı idi. Və bu "iş" görünməmiş bir tufan kimi, onsuz da əsasları müharibədən sarsılmış dünyanın başı üzərində guruldamalı idi".

Gördüyümüz kimi, elə təkcə təqdim edilən bu kiçik parçada Stalinin obrazı sanki həm bir rəssam, həm də bir psixoloq tərəfindən çəkilib.

1933-cü ildə yazıçı Almaniyada özünün "Üzülən ürək" adlı yeni romanının nəşrinə icazə verir. Bu əsərdə sənətkar öz qəhrəmanının timsalında insanların başına gətirilən fəlakətin anatomiyasını açmağa çalışıb.

Otuzuncu illərdə Almaniyanın bir çox nüfuzlu nəşriyyatları yazıçının alman dilində yazılmış və bu dilə tərcümə olunmuş əsərlərini nəşr edir. "Qafqaz novellaları", "Meqi. Gürcü qızı", "İlahənin çağırışı", "Demon və mif (Magik qeydlər)" bu deyilənlərə misaldır.

Qriqol Robakidze bütün müharibə boyu Almaniyada yaşamışdı. Almaniyanın məğlubiyyətindən sonra o başqa ölkəyə köçməyi qərara aldı. Əlbəttə, bu məsələdə vaxtilə Hitler və Mussolini haqda yazılmış əsərlərin də rolu vardı. Amma yazıçı həmin əsərləri qətiyyən faşist ideologiyasına xidmət edən yazılar hesab etmirdi. O, öz neytral, fərqli mövqeyini ortaya qoymağa çalışmışdı. Axı o, əslində öz dövrünün bütün üzdə olan simaları, o cümlədən, Lenin, Trotski, Stalin haqda da yazmışdı. Sənətkar, özünün dediyi kimi, "üçüncü sahildə" dayanmışdı. Bir də ki, keçmiş simvolist və romantikin Nitsşedən gələn ideyalara inanması –"fövqəlbəşər" aramaq istəyi bu əsərlərdə aydln hiss olunurdu.

Bəzi mənbələrdə Robakidzenin müəyyən dövrdə Adolf Hitlerin məsləhətçisi olduğu da qeyd edilir. Əlbəttə, bu fikirlər tamamilə əsassızdır. Ortada bu mülahizəni təsdiq edən elə bir inandırıcı fakt yoxdur. Yazıçı kənar, "fövqəltəbii" qüvvələrdən bircə şey umurdu: vətənin xilası. Amma sağlığında onun bu ümidləri puç oldu.

1945-ci ildə yazıçı İsveçrəyə köçdü. O, indi "intellektual emiqrant" statusu almışdı. Tanınmış ədib yeni mühacirət etdiyi ölkədə də qələmi yerə qoymadı.

Vurğuladığımız kimi, Qriqol Robakidzenin həyat və fəaliyyətinin bir dövrü Azərbaycanla bağlı olub. Yuxarıda onun vaxtilə Bakı Universitetində dərs dediyi barədə söhbət açmışdıq. Amma məsələ təkcə bu fəaliyyətlə yekunlaşmır. İş burasındadır ki, Robakidzenin ailəsinin, daha dəqiq desək, arvadının taleyi də Azərbaycanla bağlı olub.

Artıq qeyd etdiyimiz kimi, Qriqol Robakidze gələcək arvadı Nina Petrovna ilə 1915-ci ildə Qarsda tanış olub ailə qurmuşdu. Mərmilər altında başlanan bu odlu sevginin xoşbəxtlik çalarları çox az oldu.

Nina Petrovnanın qəribə bir taleyi olmuşdur. O, məşhur zadəgan Domanskilər nəslinə mənsubdur. Atası Tiflisdə milyonçu Mirzoyevin işlər idarəsində çalışırdı. Anası isə Azərbaycanın Quba şəhərində yaşayan məhkəmə hakiminin qızı idi.

Qriqol Robakidze xaricə getdikdən sonra ərlə arvadın nikahı pozuldu. Nina Petrovna öz anasının yaşadığı şəhərə qayıtmalı oldu. Az sonra qadın Aleksandr İvanoviç Meletyevlə ailə qurub Xaçmaz şəhərində yaşamağa başladı. Meletyev 1938-ci ildə repressiya olundu. Nina bütün həyatı boyu məhrumiyyətlər içində yaşamalı oldu. Artıq onun qızı Mira öz doğma atası Qriqol Robakidzenin yox, atalığı Aleksandr Meletyevin familiyasını daşıyırdı. Qızın hətta atasının adı və insialı da dəyişmişdi: Mira Aleksandrovna Meletyeva. Qız sonralar bütün bunları xatırlayaraq deyirdi: "1939-cu ildə Xaçmazda "NKVD" rəisinin oğlu ilə bir sinifdə oxuyurdum. Rəis bir gün məni çağıraraq üzərində "Qriqol Robakidze" yazılmış qovluğu cıraraq dedi ki, heç yerdə bu adı çəkmə". Bəli, Mira uzun illər öz məşhur atasının kimliyini gizlətməli olmuşdu.

Sonrakı illərdə Mira Aleksandrovna Meletyeva (əslində isə Mira Qriqoryevna Robakidze) anası Nina ilə Dağıstanın Dərbənd şəhərinə köçdü. Gənc qız burada neft sənayesi sahəsində çalışmağa başladı. Laborantlıqdan böyük mühəndisliyə qədər bir əmək yolu keçdi. Görünür, atasından ona irsi ədəbi istedad keçibmiş. Çünki gənclik illəri arxada qalandan sonra o, bədii yaradıcılıqla məşğul olmağa başladı. 2003-cü ildə Mira Aleksandrovna Meletyevanın (əslində isə Mira Qriqoryevna Robakidzenin) Ukraynanın Xmelnitsk vilayətinin Kamenes-Podolsk şəhərində seçilmiş şeirləri nəşr olundu. Qadın ahıl çağlarında artıq bu şəhərdə yaşayırdı.

Gürcü yazıçısı Qriqol Robakidze ilə Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin taleyi arasında bir oxşarlıq mövcuddur. Onların hər ikisi vətəndən kənarda ali təhsil alıb, hər ikisi Avropada yaşayıb. Qriqol Robakidze almanca, Çəmənzəminli fransızca sərbəst yazıb. Hər iki yazıçının əsərlərində paralel dövr və hadisələr qələmə alınıb. Amma onların şəxsi tanışlığının olması barədə ortada tutarlı dəlil yoxdur. Məsələ burasındadır ki, son zamanlar bəzi tədqiqatçılar "Əli və Nino" romanının şöhrətindən "ruhlanaraq" ən ağlasığmaz, qəribə "mülahizələrlə" çıxış edirlər. Həmin "mülahizələrlərdən" birisi də budur ki, guya hazırda məlum romanın müəllifi hesab olunan Əsəd bəy, Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminli ilə Qriqol Robakidzenin əsərlərini cəmləyərək nəşriyyata öz adı ilə təqdim etmişdir.

Əlbəttə, bunlar uydurmadan başqa bir şey deyildir. Yusif Vəzir Çəmənzəminli xarici mühacirətdən 1926-cı ildə Vətənə dönüb, Qriqol Robakidze isə mühacirətə 1931-ci ildə gedib.

Yeri gəlmişkən, Robakidze Nobel mükafatı nominantı olmuşdur.

Yazıçı 1962-ci ildə Cenevrədə klinikalardan birində vəfat edib. O, artıq əldən düşmüş bir qoca, çoxlarının unutduğu bir yazıçı idi. O, Cenevrədə dəfn edilib. Bir müddət sonra gürcü diasporunun təkidi ilə onun nəşi Fransaya gətirilərək Paris yaxınlığındakı Levil-syur-Orj kommunasındakı məzarlıqda dəfn olunub.

Qriqol Robakidze qələmə aldığı bir yazıda gələcək nəslə öz arzusunu, daha doğrusu, öz vəsiyyətini də bildirmişdir: "Mən bu dünyada olmayan zaman doğulduğum oktyabr ayında gürcü ananın Msextaya gələrək kiçik kilsədə şam yandırıb öz dualarında məni xatırlamasını arzu edirəm. Mən Gürcüstandan özgə heç bir şey xahiş etmirəm".

Hazırda Gürcüstanda Qriqol Robakidzenin adına universitet və fond fəaliyyət göstərir.

Böyük yazıçının son arzusu isə hər ilin oktyabr ayında xatırlanır.

**Əslində bu gün məbəddə Qriqol Robakidzenin dərddən parçalanan ürəyi od tutub yanır. Sadəcə olaraq, indi o ürəyin alovu məbəddə yanan şamın şöləsinə çevrilib.**

Firuz MUSTAFA

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*31 dekabr 2016-cı il*
*№024 (38)*

*yeni_yol@mail.ru* | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## TBİLİSİ AZƏRBAYCAN TEATRI TAMAŞAÇILAR QARŞISINA “SEHRLİ PAPAQ”LA ÇIXDI



Dekabrın 29-da Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının səhnəsində Q. Eristavinin “Sehrli papaq” tamaşası oynanılıb. Teatrın səhnəsində əvvəllər də oynanmış tamaşanın yeni quruluşunu teatrın bədii rəhbəri Varlam Nikoladzede verib. “Sehrli papaq”da səsləndirilən musiqi parçaları Rövşən Əhmədovun müşayiəti ilə təqdim edilib.

Teatrın aktyorlarından Fazil Bayramov, Leyla Qasımova, Binəli Akipov, Şeyla Cəfərova, İzabela Əliyeva və Aysel Məmmədovanın tamaşada yaratdıqları obrazlar tamaşaçılara xoş anlar yaşadıb. Bunu tamaşanı izləyənlərin aktyorların ifasını dəfələrlə alqışlamaları da sübut edib.

“Sehrli papaq” tamaşasını paytaxt sakinləri ilə yanaşı bölgələrdən gələn teatrsevərlər də izləyib.

Xatırladaq ki, teatrın bu layihəsinin ərsəyə gəlməsinə “Su və qaz texnologiyaları” MMC dəstək verib.

## GÜRCÜ ŞAHMATÇISI MAQNUS KARLSENƏ QALİB GƏLDİ



Gürcü şahmatçısı Levan Pantsulaya Qatarın paytaxtında keçirilən sürətli şahmat və blits üzrə dünya çempionatının ikinci raundunda hazırkı dünya çempionu Maqnus Karlsenə qalib gələrək səs-küylü sensasiyanın müəllifi olub. Bu barədə məlumat turnirin rəsmi səhifəsində yerləşdirilib.

Keçirdiyi beş turda Pantsulaya üç qələbə qazanıb, iki partiyanı isə heç-heçə başa vurub. Bu, gürcü şahmatçısına üçüncü aralıq yerdə qərarlaşmağa imkan verib.

Pantsulaya aktivinə beş mümkün xaldan dördünü yazdırıb.

Hazırda turnir cədvəlinə beş görüşün hamısında qələbə çalmış Ukrayna nümayəndəsi Anton Korobov başçılıq edir.

Levan Pantsulayadan başqa turnirdə Baadur Cobava, Qiqa Kuparadze və Mixail Mçedlişvili də iştirak edirlər.

## GÖZLƏRİN RƏNGİNƏ GÖRƏ İNSANIN İSTEDADINI MÜƏYYƏNLƏŞDİRMƏK MÜMKÜNDÜR

ABŞ-ın Luisvill Universitetinin əməkdaşları tərəfindən aparılan tədqiqatlar nəticəsində məlum olub ki, gözlərinin rənginə görə insanın hansı istedada malik olduğunu müəyyənləşdirmək mümkündür.

Araşdırmaların nəticələrinə görə, mavigözlü insanlar həyatda ən istedadlı və ən uğurlu insanlar hesab olunurlar. Tədqiqatın gedişində qəhvəyi rəngli gözlərə sahib olan insanların isə mavigözlü insanlarla müqayisədə daha az istedada malik olduqları, karyera və maddi vəziyyətlərindən məmnun qalmadıqları bəlli olub.

Araşdırmada iştirak edən mütəxəssislər belə nəticəyə gəliblər ki, mavigözlü insanlar ağır peşələrə daha tez yiyələnir və təhsil sahəsində daha yüksək nəticələrə nail olurlar.

## ÖSKÜRƏK VƏ BRONXİT ZAMANI ƏN TƏSİRLİ VASİTƏ

Öskürək və bronxit zamanı ən tanınmış və effektli vasitələrdən biri soğanla balın qarışığı sayılır.

Qarışığı hazırlamaq üçün 1 kq qırmızı soğan götürülür, xırda doğranılır, tənzifdə yaxşı sıxılır, eyni miqdarda təbii balla qarışdırılır.

Qarışığı gündə 3 dəfə 1 xörək qaşığı olmaqla qəbul edin. Uşaqlara 1 çay qaşığı verə bilərsiniz.

Öskürək və bronxit zamanı xəstə mümkün qədər çox maye (ot çayları, limonlu-ballı çay, südlə borjom, zoğallı çay və s.) qəbul etməlidir. Bu bəlğəmin durulaşmasına və nəfəs yollarından daha asan çıxmasına kömək edəcək.

Xatırladaq ki, bu təbii resepti saglamolun.Az saytı təqdim edib.



## STALİNİN NƏVƏSİ KÜÇƏDƏ ÖLÜ TAPILDI



Sovet rəhbəri İosif Stalinin nəvəsi Yevgeni Cuqaşvili dekabrın 22-də Moskva küçələrindən birində ölü tapılıb.

Yoldan keçənlər təcili yardım çağırsalar da, Stalinin nəvəsini xilas etmək mümkün olmayıb.

Yayılan məlumata görə, Yevgeni Cuqaşvili Moskvanın şimali-şərqində vəfat edib. Onu evinin yanında küçədə huşsuz vəziyyətdə tapıblar.

80 yaşlı təqaüdçünün ölümünün səbəbi sonra aydınlaşdırılacaq.

Yevgeni Yakovleviç Cuqaşvili 1936-cı il yanvarın 10-da Uryupinskdə doğulmuşdu. Tarix elmləri namizədi, hərbi elmlər namizədi, professor idi. 2001-ci ildən Gürcüstanın Yeni Kommumist Partiyasına başçılıq edirdi. O, Rusiya və Gürcüstan vətəndaşı idi.

Yevgeni Cuqaşvili 1990-cı ildə “Stalinin oğlu Yakov” filmində öz atasının rolunu oynamışdı.

## FRANSADA GÜNƏŞ ENERJİSİNİ ELEKTRİK ENERJİSİNƏ ÇEVİRƏN YOL İSTİSMARA VERİLİB



Fransanın Normandiya vilayətində Günəş işığının enerjisini elektrik enerjisinə çevirən asfalt çəkilib.

Dünyada tayı-bərabəri olmayan asfalt yolun uzunluğu bir kilometrdir. Asfalt yolda quraşdırılmış iki Günəş paneli eyni zamanda fəaliyyət göstərərək mövcud fiziki prosesi həyata keçirir.

Xatırladaq ki, fransızların həyata keçirdiyi bu layihə elm üçün yeni deyil. Belə ki, hələ 2014-cü ildə ilk dəfə Hollandiyada Günəş işığından enerji alan velosiped yolu sınaqdan keçirilmişdi. Həmin yol 2 ay ərzində 3000 kilovatt elektrik enerjisi hasil etmişdi.

Fransız mütəxəssislərin fikrincə, yeni yol 3 400 evi işıqlandıracaq qədər enerji hasil etmək gücünə malikdir.

## RUSİYA QARĞASI ESTONİYA VƏTƏNDAŞININ PASPORTUNU OĞURLADI

Qarğa Estoniya vətəndaşının pasportunu oğurlayıb. Hadisə Leninqrad vilayətində Rusiya-Estoniya sərhədində buraxılış məntəqəsində sənədlərin qeydiyyatı zamanı baş verib. Məlumatı RİA Novosti agentliyi yayıb.

Evinə qayıtmaq üçün avtomobili ilə İvanqorod sərhəd buraxılış məntəqəsinə gələn eston belə bir xoşagəlməz hadisə ilə qarşılaşmalı olub.

“Nəqliyyat vasitəsinin ilkin gömrük yoxlanışı başlayıb. Vətəndaş pasportunu çıxarıb, qəfildən qarğa peyda olub. Nəzakətsiz qarğa sənədi qaparaq, havaya qalxıb. Hər şey o qədər sürətlə baş verib ki, hətta hamı özünü itirib” – məlumatda deyilir.

Gömrük işçiləri Estoniya vətəndaşına yardım etməyə çalışıblar. Hətta işə xidməti itlərlə birlikdə kinoloqlar da cəlb olunub. Amma qarğanı yaxalamaq mümkün olmayıb. Pasportun itməsi barədə arayış hazırlanıb. İvanqorod polisində vətəndaşa vətənə qayıtmaq üçün lazım olan sənədləri almaq üçün Sankt-Peterburqdakı eston konsulluğunun ünvanını da veriblər.

## BAŞSAĞLIĞI

Qardabani 4 saylı şəhər ictimai məktəbinin və Kalinin kənd ictimai məktəbinin pedaqoji kollektivi, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının əməkdaşları Muradxan Eminova qardaşı

**Vidadi Hacıxəlil oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor:***
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.